**“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 8, maddə 603; 2006, 6, maddə 482; 2007, 8, maddə 745; 2008, 3, maddə 154; 2009, 12, maddə 948; 2011, 11, maddə 983; 2012, 6, maddə 509, 7, maddə 668, 11, maddə 1053; 2013, 6, maddələr 607, 623, 7, maddə 791, 12, maddə 1484; Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 845-IVQD nömrəli və 22 dekabr tarixli 880-IVQD nömrəli qanunları) 6.2-ci maddəsinin birinci cümləsində “qeydiyyata alınması” sözlərindən sonra “barədə çıxarışın verilməsi” sözləri əlavə edilsin və “çıxarışın verilməsi üçün” sözləri “çıxarışın və daşınmaz əmlaka dair texniki sənədlərin (pasport və plan ölçü) verilməsi üçün” sözləri ilə əvəz edilsin.

Bakı şəhəri, 02 may 2014-cü il
955-IVQD

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**